**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

_________________

14.03.2024-cü il

## Dünya Bankının "Business Ready" hesabatının "Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi

| Sıra №-si | Tədbirin adı | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|
| ***I. Dünya Bankının "Business Ready" hesabatının "Kommunal xidmətlər (elektrik)" indikatoru üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılması*** | | | | |
| 1. | Elektrik təchizatının ekoloji dayanıqlığına nəzarət etmək üçün "Azərişıq" ASC-nin internet səhifəsində əsas keyfiyyət göstəricilərini (KPI) onlayn rejimdə əks etdirən bölmənin yaradılması | 01.06.2024 | "Azərişıq" ASC | Araz Məmmədzadə |
| 2. | Elektrik təchizatı şəbəkələrinə (ETŞ) qoşulma üzrə göstərilən xidmətlərin keyfiyyətini ölçmək üçün sahibkarlar arasında (genderlə bağlı suallar daxil edilməklə) sorğuların keçirilməsi və sorğu nəticələrinin aidiyyəti qurumların internet və sosial şəbəkə səhifələrində yerləşdirilməsi | 01.11.2024 | "Azərişıq" ASC,<br>İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi),<br>Energetika Nazirliyi | Fərruh Heybətov,<br>Kənan İbrahimli,<br>Cahid Mikayılov |
| 3. | "Azərişıq" ASC-nin internet səhifəsində elektrikə qoşulma ilə bağlı müraciətlər, o cümlədən "elektron müraciətlər", "planlı fasilələr" bölmələri üzrə məlumatların yenilənməsi və bu barədə məlumatların mediada yayımlanması, habelə elektrik enerjisi təchizatı şəbəkələri üzrə həyata keçirilməsi nəzərdə tutulan layihələr və işlər barədə məlumatların yer aldığı müvafiq bölmənin yaradılması | 01.04.2024 (məlumatların yenilənməsi)<br><br>01.07.2024 (müvafiq bölmənin yaradılması) | "Azərişıq" ASC | Samir Səmədov,<br>Vüsal Qənbərov |

| | | | | |
|---|---|---|---|---|
| 4. | Kommunal şəbəkələrdə həyata keçirilməsi nəzərdə tutulan işlər barədə məlumatların yer aldığı vahid onlayn platformanın (internet səhifəsinin) yaradılması ilə bağlı təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | 01.07.2024 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Energetika Nazirliyi,<br>Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi,<br>“Azərişıq” ASC,<br>Dövlət Neft Şirkəti (“Azəriqaz” İB) | Xalid Xuduzadə,<br>Rəşad Xalıqov,<br>Vüsal Rəcəbli,<br>Fərruh Heybətov |
| 5. | Mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması prosedurunun sadələşdirilməsi məqsədilə mövcud 0,4 kV-luq şəbəkədən qoşulma güc həddinin 150 kVt-dan 200 kVt-a artırılması ilə əlaqədar onlayn müraciət sistemində müvafiq imkanların yaradılması | 01.05.2024 | “Azərişıq” ASC | Samir Səmədov |
| 6. | ETŞ-yə qoşulma zamanı mövcud və ya inşa ediləcək tikinti obyektlərinə abonentin iştirakı ilə baxış keçirilməsi prosedurunun aradan qaldırılması ilə əlaqədar Coğrafi İnformasiya Sisteminin (GIS-3D) tətbiqi üzrə işlərin başa çatdırılması | 01.12.2024 | | İsa İsa-zadə |
| 7. | ETŞ-yə qoşulma üzrə onlayn müraciət zamanı müvafiq ödənişlərin həyata keçirilməsinin təmin edilməsi üçün “Azərişıq” ASC-nin e-sisteminin kommersiya banklarının müvafiq sistemləri ilə inteqrasiyasının təmin edilməsi | 01.07.2024 | Mərkəzi Bank,<br>“Azərişıq” ASC | Elgün Xəlilzadə,<br>Fərruh Heybətov |
| 8. | Azərbaycan Respublikası Prezidentinin “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının icrası məqsədilə Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin yaradılması istiqamətində işlərin yekunlaşdırılması | 01.11.2024 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Energetika Nazirliyi,<br>Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi,<br>“Azərişıq” ASC,<br>Dövlət Neft Şirkəti (“Azəriqaz” İB) | Rəşad Xalıqov,<br>Vüsal Rüstəmov,<br>Vüsal Rəcəbli,<br>Fərruh Heybətov |
| 9. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”na 7 nömrəli əlavəyə - “Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) Siyahısı”na Daxili İşlər Nazirliyinin adının əlavə olunmasına dair dəyişikliyin edilməsini nəzərdə tutan müvafiq qərar layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2024 | Energetika Nazirliyi,<br>Daxili İşlər Nazirliyi | Mürvət Babayev |

| | | | | |
|---|---|---|---|---|
| 10. | Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyin müvafiq qurumlar tərəfindən vaxtında verilməsi və müəyyən edilmiş vəzifələrin icra vəziyyəti barədə rüblük hesabatların hazırlanaraq aidiyyəti quruma təqdim olunması | Hər rübdən sonrakı ayın 15-dək | “Azərişıq” ASC | Fərruh Heybətov |
| ***II. Maarifləndirmə və təbliğat işlərinin aparılması*** | | | | |
| 11. | Dünya Bankının “Business Ready” hesabatının “Kommunal xidmətlər (elektrik)” indikatoru üzrə sorğu anketinin strukturu əsasında qanunvericilikdə aparılan ən son dəyişikliklər nəzərə alınmaqla ETŞ-yə qoşulma ilə bağlı suallar və onların cavablarını, həmçinin rəsmi sənədlərin müvafiq linklərini, eləcə də qoşulmalar üzrə statistik göstəriciləri özündə əks etdirən təqdimatın Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla hazırlanması | 01.05.2024 | “Azərişıq” ASC | Vaqif Mustafayev, Fərruh Heybətov |
| 12. | Yol Xəritəsinin 11-ci tədbirinin icrası ilə bağlı hazırlanmış təqdimat üzrə hədəf qrupları ilə (konsaltinq şirkətləri, Azərbaycan Sahibkarlar Konfederasiyası, enerji üzrə ekspertlər, media və s.) görüşlərin keçirilməsi və təbliğat işlərinin təşkili (media və sosial şəbəkələrdə məlumatların yayılması və s.) | 15.05.2024<br>15.06.2024<br>15.07.2024 | “Azərişıq” ASC, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Energetika Nazirliyi (o cümlədən Enerji Məsələlərini Tənzimləmə Agentliyi) | Vaqif Mustafayev, Vüsal Rüstəmov, Kənan İbrahimli, Cahid Mikayılov, Pərviz Əliyev |
| 13. | Beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərin keçirilməsi, ETŞ-yə qoşulma sahəsində aparılmış islahatlar barədə onların məlumatlandırılması | 01.06.2024 | Energetika Nazirliyi, “Azərişıq” ASC, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Vaqif Mustafayev, Vüsal Rüstəmov, Kənan İbrahimli |
| 14. | Elektroenergetika sektorunda tənzimləyicinin funksiya və səlahiyyətlərini əks etdirən “Elektron Məlumat Kitabçası”nın (Handbook) hazırlanması | 01.11.2024 | Energetika Nazirliyi (o cümlədən Enerji Məsələlərini Tənzimləmə Agentliyi) | Hikmət Həsənov, Fariz Şirinov, Rauf İsmayılov |
| 15. | ETŞ-yə qoşulma ilə bağlı tez-tez verilən suallar və onların cavablarının, həmçinin müvafiq cavablarla bağlı linklərin internet səhifələrində yerləşdirilməsi | 01.06.2024 | “Azərişıq” ASC, Energetika Nazirliyi (o cümlədən Enerji Məsələlərini Tənzimləmə Agentliyi) | Vaqif Mustafayev, Cahid Mikayılov, Pərviz Əliyev |
| 16. | ETŞ-yə qoşulma prosedurları və müvafiq sahədə tətbiq olunan yeniliklərlə bağlı brifinqlərin keçirilməsi və mediada müvafiq məlumatların yayımlanması | 15.06.2024<br>15.10.2024 | “Azərişıq” ASC | Vaqif Mustafayev |

| | | | | |
|---|---|---|---|---|
| 17. | ETŞ-yə qoşulma üzrə müraciətin Elektron Müraciətlərin İdarə Olunması Sistemi (EMİOS) vasitəsilə onlayn qaydada edilməsinin üstünlükləri barədə media vasitəsilə sahibkarların və ümumilikdə ictimaiyyətin məlumatlandırılması | Mütəmadi | "Azərişıq" ASC, Energetika Nazirliyi (o cümlədən Enerji Məsələlərini Tənzimləmə Agentliyi) | Vaqif Mustafayev, Cahid Mikayılov, Pərviz Əliyev |
| 18. | ETŞ-yə qoşulma ilə bağlı müvafiq məlumatların, yeniliklərin, tarif dəyişikliklərinin və digər aidiyyəti mövzuların sahibkarlıq subyektlərinin elektron poçt üzrə məlumat bazası üzərindən onların elektron ünvanlarına göndərilməsi | | "Azərişıq" ASC | Vaqif Mustafayev |
| 19. | ETŞ-yə qoşulma ilə bağlı qanunvericilikdə aparılan ən son dəyişikliklərlə əlaqədar sahibkarlıq subyektlərinin məlumatlandırılması üçün onlara müvafiq treninqlərin keçirilməsi və qoşulma ilə bağlı qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üzrə zəruri tədbirlərin görülməsi | 01.06.2024<br>01.11.2024 | "Azərişıq" ASC, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Araz Məmmədzadə, Kənan İbrahimli |
| 20. | Sahibkarlara ünvanlanmış televiziya verilişlərində ETŞ-yə qoşulma ilə bağlı məlumatların verilməsi | Mütəmadi | "Azərişıq" ASC | Vaqif Mustafayev |
| 21. | ETŞ-yə qoşulma prosedurları və müvafiq sahədə tətbiq olunan yeniliklərlə bağlı videoçarxın hazırlanaraq mediada, eləcə də aidiyyəti orqanların internet və sosial şəbəkə səhifələrində yerləşdirilməsi | 01.07.2024 | "Azərişıq" ASC, Energetika Nazirliyi (o cümlədən Enerji Məsələlərini Tənzimləmə Agentliyi) | Vaqif Mustafayev, Cahid Mikayılov, Pərviz Əliyev |
| 22. | Qanunvericilikdə aparılan ən son dəyişikliklər nəzərə alınmaqla, ETŞ-yə qoşulma ilə bağlı tez-tez verilən sualları və onların cavablarını özündə əks etdirən bukletin hazırlanması və sahibkarlara təqdim edilməsi, eləcə də müvafiq çağrı mərkəzlərinin əməkdaşlarına çatdırılması | | "Azərişıq" ASC, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) | Fərruh Heybətov, Kənan İbrahimli |